# KİTABIN TƏQDİMATI

Təzə çıxan kitabın,
Gedirdi təqdimatı.
Müzakirə olurdu,
Şairin söz həyatı.

Boz it iclası açdı,
Sözü verdi Pişiyə.
Pişik qalxıb kürsüyə,
Baxdı hər bir deşiyə:

"Atını möhkəm çapır,
İndi təzə yazanlar.
Poeziya aləminə,
Çox böyük bir axın var.

Qoy var olsun deyirəm,
Bu məclisin heyəti.
Şairlərin sözünə,
Bunlar verir qiyməti.

Nə olsun ki, yazanlar,
Hərdən baş-ayaq yazır.
Biri yuxu içində,
O biri ayıq yazır.

İstərdim bu məclisdə,
Sevindirəm hamını.
Gəlin bir araşdıraq,
Tulanın kitabını.

Kitabda yeniliklər,
Sanki baş alıb gedir.
Bu Alabaş it oğlu,
Şeirdə üsyan edir.

Bizim cavan şairin,
Qələmi çox itidi.
Bu günün tulaları,
Sabahların itidi.

Siz bu "tula" şairdə,
Yeniliyə bir baxın.
Onu tanımaq üçün,
Kitaba olun yaxın.

Qələmini ox edib,
Təzə cığırlar açır.
Onun şeirlərində,
Eşşək atdan bərk qaçır.

Hər bir kiçik yazıda.
İcad edir yenilik.
Dəvələrin boynunu,
Yazıb, düzəltməliyik.

İndi bizim yaltaqlar,
Göydə gərək sürünsün.
Hər şeyin üzü bəlli,
Astarı da görünsün.

Yeniliklər içində,
O, alınmaz qaladı.
Onun tanıyanı az,
Hələlik o, tuladı.

Nə olsun ki, şeirdə,
Azdır sözlərin düzü.
Balinaya bənzədir,
O, çaydakı qunduzu.

Dərin mənalı sözlər,
Fikirlər onda çoxdu.
Şeirində hərlənən,
Çarxların oxu yoxdu.

Onun şeirlərində,
Bizin ucu yastıdı.
Cinə çalpapaq tikən,
İynəsi çox paslıdı.

Nələr, nələr yaşayır,
Öz poetik dilində.
Gözəl söyüşləri var,
Dişlərinin dibində.

Siçanlara tullayır,
O, dəyirman daşını.
Qoyur daşın altında,
Öz sənət yoldaşını".

Siçan qulaq asırdı,
Pişiyə dar deşikdən.
O, çoxdan istəyirdi,
Qisas alsın Pişikdən.

Risklə çıxıb deşikdən,
Meydanı siçan aldı.
Tənqid edib Pişiyi,
Yamanca gözdən saldı"

"Nə çox tərif edirsiz,
Siz təzə kitabları.
Arxalı tulaları,
Tərif etməyin barı.

Deyin, duzsuz kitablar,
Axı kimə gərəkdi?
Tulanı tərifləyib,
Deyirsiniz Köpəkdi.

Siz söyləyən kitabda,
Sözlər köndələn gedir.
Ürəklərə yol tapmır,
Hər kəsi candan edir.

Yazarlar çox olsa da,
Yaxşı yazılar azdı.
Çoxları yaza-yaza,
Öz cığırında azdı.

O kitabın duzu yox,
Bu kitab çox acıdı.
Kitablar təkrarlanır,
Sanki əkiz bacıdı.

Zay kitab çeynəməkdən,
Arvad evdə bayılır.
Elə günə düşübdü,
Qabırğası sayılır.

Təzə kitab çıxanda,
Köhnələr itib-batır.
Dadsız kitab yeməkdən,
Ağzımız zəhər dadır.

Çoxdur təzə kitablar,
Hətta yeməyir Qatır.
Köhnə kitabın tozu,
Təzədən yaxşı dadır.

Çoxunda məntiq yoxdur,
Nə elə bir fikir var.
Kitabların çoxunu,
Almamış apar qaytar.

Bu kitabın duzu az,
Şoraba dadır o kitab.
Bu kitab milli deyil,
Bizə yaddır o kitab.

Yaxşı kitablar azdı,
Yaxşılar əllərdədi.
Yaxşılar yağ-bal dadır,
Hamısı dillərdədi.

Hər bir yazıb yaradan
Zaman-zaman qocalır.
Azalır həyalılar,
Həyasızlar çoxalır.

Nə söyləyim sizə mən?
Yoxdur qanacağınız.
Kimi tərif edirsiz,
Vardır umacağınız.

Yaxşı kitablar da var,
Fürsət düşdü yeyirik.
Yaxşı kitab yazana,
Bir sağ ol da deyirik.

Doğrudan da, gərəkdir,
Bizə əsl yüksəliş.
İtə qoyulan yala,
Pişik də hürüyərmiş".

Sözünü bitirməmiş,
Siçan girdi deşiyə.
Ab-hava dəyişib,
Daha çıxmır eşiyə.

***Rafiq MUSA***

